Peşə təhsili və insan kapitalı. Cild 5, №3, 2022, s.26-29

# AZƏRBAYCANDA ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DİVERSİFİKASİYASI (XX əsrin 60-70-ci illəri)



**Şiruyə Azadəliyeva,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: shuriye.azadeliyeva@gmail.com*

**UOT:** 37

**Xülasə**. *XX əsrin 60-70-ci illərində Azərbaycanda pedaqoji kadr hazırlığında qazanılan uğurda ali pedaqoji təhsilin diversifikasiyası (rayonlaşdırılması) mühüm rol oynadı. Məqalədə həmin illərdə pedaqoji kadr hazırlığının vəziyyətindən, ali təhsil müəssisələrinin diversifikasiyasının əhəmiyyətindən bəhs olunur.*

***Açar sözlər:*** *Azərbaycan, ali təhsil, müəllim, məktəb, pedaqoji təhsil.*
***Key words:*** *Azerbaijan, higher education, teacher, school, pedagogical education.*
***Ключевые слова:*** *Азербайджан, высшее образование, учитель, школа, педагогическое образование.*

Ötən əsrin 60-cı illərinin əvvəllərində Azərbaycanda ali pedaqoji təhsil ləng olsa da inkişaf edirdi. 1961-1965-ci illərdə ölkədə ümumtəhsil məktəblərinin kəmiyyət və keyfiyyət göstəriciləri inkişafa meyillənmişdir. Ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sayı məktəbin bütün dərəcələri üzrə artmışdır. Belə ki, təkcə Maarif Nazirliyinə tabe olan ümumtəhsil məktəblərinin artımı 1961-1962-ci tədris ilinə nisbətən, 1965-1966-cı tədris ilində 310 və ya 7,4%, şagirdlərin ümumi artımı isə 325.538 və 31,6% olmuşdur. Bu artım respublikada müəllim kadrlarına olan tələbatı daha da artırdı. 60-cı illərin əvvəllərində respublikamızın məktəblərində 45 min müəllim işləsə də, məktəblərin bir çoxunda, xüsusilə kənd yerlərində müəllim çatışmazlığı hiss olunurdu. Orta təhsilliləri və yaşlı müəllimləri əvəz edəcək ali təhsilli gənclər ucqar dağ kəndlərində işləmək istəmirdilər. Səkkizillik və orta ümumi təhsil pilləsinə keçməsi, şagirdlərin sayının sürətlə artması (bu artım hər il 70-80 min uşaq demək idi) əlavə problemlər yaradırdı.

Məktəblərin pedaqoji kadrlarla təminatında yaranan vəziyyəti nəzərə alaraq, Sov.İKP MK-si və SSRİ Nazirlər Soveti 31 avqust 1961-ci ildə "Ümumtəhsil məktəblərinin müəllim kadrları ilə təmin edilməsi haqqında" [1, s.432] Qərar qəbul etdi. Bu qərara əsasən, respublikanın bütün ali məktəbləri kimi pedaqoji institutlarında da maddi-texniki baza elə qurulmalı idi ki, müəllimlərin yaradıcı işləməsi, tələbələrin elmlərin əsaslarına dərindən və hərtərəfli yiyələnməsi üçün əlverişli şərait yaratmış olsun. 60-cı illərin əvvəllərində pedaqoji ali məktəblərin əksəriyyətində məşğələlər üçün lazımi tədris sahəsinin olmadığına görə binalar başqa təşkilatlardan icarəyə götürülürdü. Lakin bu binalar təlim-tərbiyə işinin la-

zımi səviyyədə təşkilində böyük çətinliklər yaradırdı. Respublikanın aparıcı tədris müəssisəsi olan Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tədris korpusları əsas tədris korpusundan xeyli aralı, pərakəndə şəkildə yerləşmişdir. Həmçinin H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunda məşğələ otaqlarının azlığı, tədris binasının darısqallığı, fakültələrin pərakəndə şəkildə yerləşdirilməsi ciddi çətinliklər yaradırdı.

Kənd yerlərində gənc mütəxəssislərə qayğı və diqqətin aşağı səviyyədə olması bir ildə 300 nəfərdən artıq gənc müəllimin rayon məktəblərində (xüsusilə kənd) işləməkdən boyun qaçırması ilə nəticələnmişdir. Məzunların böyük bir dəstəsi hələ bölgü zamanı bu və ya digər səbəb üzündən təyinatdan azad olurdu. Belələrinin sayı hər il orta hesabla 1200-1300 nəfərə çatırdı.

70-ci illər respublikada xarici dil müəllimlərinin hazırlanmasında yeni bir mərhələ idi. Xarici dil müəllimlərinə olan tələbatı ödəmək məqsədi ilə 1973-cü ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun xarici dillər fakültələri əsasında Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu yaradıldı.

Azərbaycanın digər bölgələrində, Naxçıvan Muxtar Respublikasının və Dağlıq Qarabağ Muxtar Vilayətinin məktəblərində müəllim kadrları çatışmazlığını nəzərə alaraq, 1967-1968-ci tədris ilində ADPİ-nin Naxçıvan filialı, 1968-1969-cu tədris ilində isə Xankəndi filialı yaradıldı. Azərbaycan SSR Nazirlər Sovetinin 12 iyul 1972-ci il tarixli Qərarına əsasən, ADPİ-nin bazası əsasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu, 28 noyabr 1973-cü il tarixli Qərarına əsasən, Xankəndi Dövlət Pedaqoji İnstitutu yaradıldı [3, s.171]. Bütün ali təhsil müəssisələri üçün APİ həqiqətən elmi-metodik baza oldu, onların gələcək inkişafında bu institutun müsbət ənənələri tarixi rol oynadı.

Ali pedaqoji məktəblərin maddi-texniki bazasının inkişafının artırılmasına təsir edən hökumətin sonrakı mühüm sənədi 1971-ci ilin oktyabr ayında qəbul etdiyi “Ali məktəb tələbələri və orta ixtisas məktəbləri şagirdlərinin maddi və yaşayış-məişət şəraitinin daha da yaxşılaşdırılması vəzifələri haqqında” Qərarı oldu. Ali məktəblərin, o cümlədən pedaqoji institutların maddi-texniki bazasının artırılması və daha da möhkəmləndirilməsi məsələləri hökumətin himayəsi əsasında həyata keçirilirdi. Bu, Azərbaycanın ali pedaqoji məktəblərinin inkişafında, xüsusilə ali məktəb tikintisində özünü aydın göstərirdi.

1970-ci ildə respublikanın ali pedaqoji məktəblərinə tələbə qəbulu 5,9 min nəfər (buraxılış 4,5 min nəfər) olduğu halda, 1980-ci ildə müvafiq olaraq tələbə qəbulu 6,5 min nəfərə (buraxılış 5,9 min nəfər) çatmışdır. 1980-ci ildə 6 pedaqoji institutda 26,2 min tələbə təhsil alırdı. 1972-ci ildə ADPİ-də təşkil edilən texniki fakültə respublikanın ümumtəhsil və peşə məktəbləri üçün əmək təlimi müəllimlərinin hazırlanmasında mühüm rol oynadı. Bu fakültə sonrakı illərdə H.Zərdabi adına KDPİ-də və Y.Məmmədəliyev adına NDPİ-də təşkil edildi.

Respublikamızda ilk dəfə “musiqi və nəğmə” ixtisası üzrə müəllim kadrları hazırlığına 1980-1981-ci ildən başlanıldı. Bu məqsədlə ADPİ-də peşəni yaxşı öyrənmək üçün müasir təchizatla təmin olunmuş 10 laboratoriya yaradıldı.

Bu təhsil ocağında ilk dəfə olaraq ali təhsilli rəsm müəllimləri hazırlanmağa başlandı. “Rəsm, rəsmxətt və əmək” şöbəsi 1971-1981-ci illərdə ümumi texniki fənlər fakültəsinin nəzdində fəaliyyət göstərirdi. 1981-ci ildə müstəqil bədii qrafika fakültəsi yaradıldı. Yüksək ixtisaslı rəsm, rəsmxət müəllimləri respublikanın ümumtəhsil məktəblərində müvəffəqiyyətlə işləməyə başladılar [3, s.207]. Bu fakültələrin genişləndirilməsində əsas məqsəd musiqi, nəğmə, rəsm, rəsmxət, bədən tərbiyəsi və əmək müəllimlərinin 66,9 faizinin ali təhsil almamasından irəli gəlirdi. Bədən Tərbiyəsi İnstitutunda 1980-ci ilədək hazırlanan 6387 mütəxəssis də respublika məktəblərini tam təmin edə bilmirdi [4, s.130].

Qeyd olunanlar Azərbaycan Respublikasının ali pedaqoji məktəblərinin 60-70-ci illərdə tədris-maddi bazasının inkişafı və möhkəmləndirilməsi işinin nə qədər mühüm rol oynadığını əyani surətdə göstərir. Bu dövrdə əldə olunan irəliləyişlərdə ali məktəb rəhbərlərinin əməyi xüsusi qeyd olunmalıdır. Tədqiqatın gedişi göstərdi ki, ali təhsil ocaqlarının uzun müddət rektor və prorektorlarının heç biri pedaqoji elmlər üzrə mütəxəssis olmasalar da, respublikanın ümumtəhsil məktəblərinin ixtisaslı pedaqoji kadrlarla təchizinə səy göstərmişlər [5, s.28]. Bununla yanaşı, araşdırmalar göstərir ki, ali pedaqoji məktəblərin tədris-maddi bazasının inkişaf problemləri müəy-

yən qədər həll edilməmiş qalırdı. Yeni tədris korpuslarının, yataqxanaların tikintisi əksər hallarda yubadılır, mərkəzi və yerli təsərrüfat orqanları plan tapşırıqlarının öhdəsindən həmişə gələ bilmirdilər.

Ölkəmizdə ali pedaqoji təhsilin inkişaf problemləri üzrə sənədlər göstərir ki, ali pedaqoji məktəblərə gənclərin seçilməsi məsələləri 70-ci illərdə də xüsusi əhəmiyyət kəsb etmişdir:

– *müəllim kadrları hazırlığındakı çətinliklər, müəllim peşəsinin nüfuzunun aşağı düşməsi;*

– *gənclərin bir hissəsinin qabiliyyəti olmadan ali pedaqoji məktəblərə daxil olması, sonradan məktəbdə işləmək həvəsinin olmaması;*

– *ali pedaqoji məktəblərə tələbə qəbulunun təşkilində kənd məktəbləri üçün ixtisaslı kadrların formalaşması probleminin kəskinləşməsi;*

– *müəllim kollektivlərinin feminizasiyası ilə əlaqədar olaraq pedaqoji məktəbə seçmə və qəbul işində oğlanların xüsusi çəkisinin artırılması.*

Tədqiqat materialları göstərir ki, 60-70-ci illərdə orta məktəb məzunlarının əksəriyyəti pedaqoji institutlara meyil etmişlər. Faktlara müraciət edək. 1977-ci tədris ilində H.Zərdabi adına KDPİ-nin əyani şöbəsinə qəbul planı 525 olan yerə 3564 nəfər ərizə vermiş, 632 nəfər müvəffəq qiymət almış, 431 nəfər qəbul olmuşdur. Tələbələrdən 94 nəfər isə hazırlıqdan gəlmişdir. Göründüyü kimi, 431 yer uğrunda 3564 abituriyent mübarizə aparmışdır. Bu o deməkdir ki, 2932 abituriyent "qeyri-kafi" qiymət almışdır. Bu da ümumtəhsil məktəblərinin fəaliyyətinin keyfiyyət göstəricilərinin aşağı olmasına dəlalət edirdi. 1980-1981-ci tədris ilində M.F.Axundov adına APRDƏİ-yə qəbul planı 1000 nəfər təşkil edirdi (o cümlədən 750 yer gündüz, 250 yer qiyabi şöbə). Bu, 1978-ci ildəkindən 175 nəfər çox idi. Qəbul üçün 3000 ərizə, o cümlədən 2356 ərizə gündüz şöbəsinə verilmiş, qiyabi şöbəyə 250 yer uğrunda 415 abituriyent mübarizə aparmışdır. Verilən ərizələrin sayının dəfələrlə artıq olması bu institutlara abituriyentlərin yüksək meyilliyini göstərirdi [5, s.31].

Müəllim kadrları hazırlığında peşəyönümü mühüm rol oynayırdı. Pedaqoji peşəyönümü işi yuxarı siniflərdə yekunlaşdırılır, həmin siniflərdə əsas diqqət peşə marağının dərinləşməsinə və şagirdlərin peşə hazırlığının sona çatdırılmasına yönəldilirdi. ADPİ-nin "Şagirdlərin peşəyönümü" problem laboratoriyasında bu sahədə mühüm işlər görülürdü. Görülən bütün işlərə baxmayaraq, ildən-ilə pedaqoji institutların tələbə auditoriyalarında oğlanların sayı azalırdı. 70-ci illərdə bu fakt sosioloq, psixoloq və pedaqoqların diqqətini cəlb etmiş və onlar tərəfindən müxtəlif aspektlərdə təhlil olunmuşdur. Mütəxəssislərin fikrincə, məktəbdə kişi müəllimlərin sayının azalması şagirdlərin, xüsusilə oğlanların tərbiyəsinə mənfi təsir göstərir. Kişi müəllimlərin dərs dediyi siniflərdə əksər hallarda təlim-tərbiyə, nizam-intizam daha yüksək olur. Digər tərəfdən, məktəbdə təlim-tərbiyə prosesi getdikcə mürəkkəbləşir. Onun müsbət həlli müəllimdən daha çox məşğul olmaq, öz üzərində müntəzəm çalışmağı tələb edir. Ailə həyatı qurduqdan sonra qadın müəllimlərin bir çoxunun boş vaxtı az olur, onların həyatında vəzifə borcu, istər-istəməz bir növ ikinci plana keçir. Bu vəziyyət məktəbin artan tələbatına cavab vermir, təlim-tərbiyə prosesinə mənfi təsir edir.

Pedaqoji institutlara gənclərin seçilməsi və qəbulu işinin təkmilləşdirilməsinə yönəldilən bütün tədbirlər tələbələrin sosial strukturunu yaxşılaşdırmağa imkan verdi. Ali pedaqoji məktəblərə gəncləri cəlb etmək məqsədi ilə təşkil edilən kurslarda dərslər istehsalatdan ayrılmadan aparılırdı. Sumqayıtda, Mingəçevirdə, Gəncədə, Naxçıvanda, Əli Bayramlıda (indiki Şirvan) və başqa yerlərdə hazırlıq kursları xüsusilə yaxşı təşkil olunmuşdur. H.Zərdabi adına KDPİ-də 1975-1976-cı tədris ilində 271 müdavimdən 65 nəfəri, 1976-1977-ci tədris ilində isə 260 müdavimdən 72 nəfəri qəbul imtahanlarında yüksək bilik nümayiş etdirərək tələbələr cərgəsinə daxil olmuşdur [6, s.94].

Respublikanın pedaqoji ali məktəblərində təhsil alan tələbələrin də sosial tərkibi tədqiqat dövrü ərzində yüksəlmişdir. H.Zərdabi adına KDPİ-də 1970-ci ildə fəhlələr və kolxozçular, onların uşaqları qəbul edilənlərin 52%-ni təşkil edirdisə, 1975-ci ildə isə qəbul olunanların 69%-ni təşkil etmişdir. Akademik Y.Məmmədəliyev adına NDPİ-də 1976-1977-ci tədris ilində fəhlə və fəhlə uşaqları 51%, kolxozçu və kolxozçu uşaqları 11,2%, qulluqçu və qulluqçu uşaqları 37% təşkil edirdisə, 1980-ci ildə müvafiq olaraq fəhlələr 57,9%, kolxozçular 13%, qulluqçular 29,1% təşkil etmişdilər [5, s.37].

Tələbələrin seçdiyi ixtisas üzrə əməli iş stajına malik olanların sayına görə Azərbaycan SSR 1961-ci ildə SSRİ-nin orta göstəricisindən 60,9% xeyli geri qalırdı (29,1%). Sonrakı illərdə iş stajı olan tələbələrin sayı getdikcə artırdı. 1962-1963-cü tədris ilində gündüz şöbəsinin birinci kursuna qəbul olunanların əməli iş stajı universitetdə 55,4%, M.F.Axundov adına APRDƏİ-də 38,2%, H.Zərdabi adına KDPİ-də 37,8% təşkil edirdi. Belə bir vəziyyət, həm də respublikanın sosial xüsusiyyətlərini əks etdirirdi. Bu zaman kənd yerlərində ümumtəhsil məktəblərinin sayı böyük üstünlük təşkil edirdi. Belə ki, 1961-1962-ci tədris ilində şəhərdə cəmi 608 ümumtəhsil məktəbi fəaliyyət göstərdiyi halda, kənd yerlərində bu rəqəm təxminən 5 dəfədən artıq idi, yəni 3276 məktəb fəaliyyət göstərirdi. Şagirdlərin sayı da müvafiq dövrdə 384.43-dən artaraq 540.181-ə çatmışdır. 70-ci illərdə, xüsusilə də onuncu beşilliyin (1976-1980) ilk illərində ümumi orta təhsilə keçidin, əsasən, sona çatdırılması təmin edilmişdir. 1965-ci ildə Azərbaycan SSR-də gündüz orta ümumtəhsil məktəblərinin sayı 765 olduğu halda, 1970-ci ildə 1287, 1975-ci ildə 1664, 1978-ci ildə isə 1872-yə çatmışdır.

Respublikanın pedaqoji institutları yalnız Azərbaycan üçün deyil, həm də Gürcüstan, Ermənistan üçün də ali təhsilli pedaqoji kadr hazırlığında fəal iştirak etmişdir. Təkcə ADPİ 70-ci illərin əvvəllərində Gürcüstana 150, Ermənistana 60, 1976-1980-ci illərdə isə Gürcüstana 229, Ermənistana 192 ali təhsilli müəllim göndərmişdir (bura kooperasiya yolu ilə hazırlananlar da daxildir) [6, s.39].

Zaqafqaziya respublikalarındakı Azərbaycan dilli orta ümumtəhsil məktəblərinin rus dili və ədəbiyyatı, xarici dil ixtisasları üzrə pedaqoji kadrlarla təmin olunması işində M.F.Axundov adına APRDƏİ və SSRİ-nin 50 illiyi adına ADXDİ əhəmiyyətli işlər görmüşlər. 1976-1980-ci illərdə M.F.Axundov adına APRDƏİ Gürcüstan Respublikasına 34 nəfər, 1978-1980-ci illərdə Ermənistan Respublikasına  42 gənc pedaqoq göndərmişdir [7, s.40]. 1975-1980-ci illərdə Xarici Dillər İnstitutu bu respublikalara müvafiq olaraq 53 və 48 nəfər müəllim göndərmişdir ( bura kooperasiya yolu ilə hazırlananlar da daxildir).

**Nəticə.** Aparılan tədqiqatların nəticəsi olaraq belə qənaətə gəlinir ki, XX əsrin 60-70-ci illərində Azərbaycanda pedaqoji kadr hazırlığında qazanılan uğurlarda ali pedaqoji təhsilin diversifikasiyası (rayonlaşdırılması) mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT

1. КПСС о культуре, просвещении и науке. Сборник документов, Москва, Политиздат, 1963, 552 с.

2. Rüstəmov F. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi. I cild, Bakı, Elm və təhsil, 2021, 384 səh.

3. Алиев К.Г. и др. Развитие высшей школы в Советском Азербайджане. Баку, Маариф, 1984, 414 с.

4. Məhərrəmov A. Bakı Dövlət Universiteti. Bakı, Göytürk, 2000, 446 səh.

5. Məhərrəmov Ə. Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixindən (1961-1981-ci illər). Bakı, ADPU, 1998, 127 səh.

6. Azadəliyeva Ş. Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafı (1920-1991-ci illər). Bakı, Elm və təhsil, 2012, 367 səh.

**Sh.Azadaliyeva**

### Diversification of pedagogical higher educational institutions in Azerbaijan (60s-70s of 20th c.)

**Abstract**

In general, the diversification (regionalization) of higher pedagogical education played an important role in the successes achieved in the training of pedagogical personnel in Azerbaijan in the 60-70s of the 20th century. The article examines the trends in the development of teacher education in Azerbaijan in the 60s and 70s.

**Ш.Азадалиева**

### Диверсификация высших педагогических учебных заведений в Азербайджане (60-е–70-е годы XX века)

**Аннотация**

В целом диверсификация (регионализация) высшего педагогического образования сыграла важную роль в успехах, достигнутых в подготовке педагогических кадров в Азербайджане в 60-70-е годы XX века. В статье рассматривается состояние подготовки учителей в те годы и важность многопрофильности высших учебных заведений.